# Azərbaycanda əlifba islahatı tarixinə dair şəxsi rəy
**Anar**

Mənbə: Azerbaijan International jurnalı - AI 8.1 (Yaz 2000)
© Azerbaijan International

İngilis dilində belə bir ifadə var: "Atası necə, özü də elə." Lakin Azərbaycan Yazıçılar İttifaqının hazırki sədri Anar atası Rəsul Rzaya yalnız yazıçı olması və Azərbaycanda ən nüfuzlu yazıçılar qrupuna başçılıq etməsi ilə oxşamır. Onların hər ikisi öz xalqına yeni əlifbaya keçiddə çox böyük xidmət göstərib. 1939-cu ildə Rəsul Rzanın latın əlifbasından kiril əlifbasına keçid üçün əsas hazırlamaqdan başqa bir seçimi yox idi. Bu gün Anarın rolu bu keçidin tam əksini yerinə yetirməkdən ibarətdir. O, Parlamentin kiril əlifbasından latın əlifbasına keçidlə əlaqədar məsələlərə baxan əsas komitəsinə rəhbərlik edir. Bu dəfəki keçid Azərbaycanın 1991-ci ildə Sovet İttifaqı dağıldıqdan sonra etdiyi öz seçimi olmuşdur.

Əlifba Anarın ailəsinin həyatında mühüm rol oynadığından, o bu mövzu ətrafında əhəmiyyətli tarixi araşdırmalar aparmışdır. Burada onun son əsr ərzində baş vermiş keçidlərə şəxsi münasibəti verilir.

Atam Rəsul Rza yalnız bir il—1939-cu ildə Yazıçılar İttifaqının sədri olub. Mənim o vaxt iki yaşım ancaq olardı. Bu dövr bədnam qara volqaların günün günorta çağı müəmmalı şəkildə evlərin önündə peyda olduğu Stalin repressiyalarının kulminasiya dövrü idi. Bu zaman hədəf seçilmiş şəxslərin doğmaları bir daha onları görmürdü. Ziyalılar və siyasi sistemə zidd bir söz belə deməyə cəsarəti çatanlar sadəcə olaraq yoxa çıxırdılar. Bir çox başqalarının da heç bir səbəb olmadan aqibəti bu cür olurdu. Bir çoxları güllələnir, digərləri isə Sibir əmək düşərgələrinə sürgün olunurdu. Bu yalnız Azərbaycanda deyil, bütün Sovet İttifaqı ərazisində həyata keçirilirdi. 1953-cü ildə Stalinin ölümü ilə bu qərar qüvvəsini itirdiyi zaman artıq qurbanların sayı yüz minlərlə, bəzi mənbələrə görə isə daha çox idi.

Anam, şairə Nigar Rəfibəyli bir gün atamın evə sevimli şair Səməd Vurğunla gəldiyi haqda danışardı. Atam anamdan bir qədər yemək və içməyə bir şey, yəni araq istədi. Anam arzuedilməz bir hadisənin baş verdiyindən şübhələndi. O yanılmamışdı. Azərbaycanda Kommunist Partiyasının Birinci Katibi və Stalinin sağ əli olan Mir Cəfər Bağırov onları yanına çağıraraq ilkin latın əlifbasından rus əlifbasına, yəni kiril əlifbasına keçid məsələsini qaldırmağı əmr etmişdi.

Çıxış yolu yox idi. Bu göstəriş birbaşa Stalindən gəlmişdi. Beləliklə, öz bəxtlərinə və yalnız on il bundan əvvəl qəbul edilmiş latın lifbasının taleyinə acımaqdan başqa əllərindən heç nə

gəlməyən atam və Vurğun birlikdə nahar etdilər. Onlar bu dəyişikliklə razılaşmamağa və bir kimsəyə yerinə yetirməli olduqları əmrə dərin nifrət bəslədiklərini deməyə cəsarət etmirdilər. Özlərini elə göstərməli idilər ki, guya bu fikirlə tam razıdırlar. Onların başqa bir yolu yox idi.

Lakin onsuz da atamın bu məsələ ilə bağlı başı bəlalar çəkdi, amma başına gələnlər öz əməlinin nəticəsi deyildi. Onun Abdulla Fərrux adlı bir şair qohumu var idi. Atama bir söz demədən Abdulla Bağırova məktub yazmış və orada kiril əlifbasına keçidə etirazını bildirmişdi. Bundan qəzəblənən Bağırov atamı yanına çağırıb bildirmişdi: “Sənin özünun etiraz etməyə cəsarətin çatmayıb, ona görə də qohumundan bunu etməyi xahiş etmisən.”

Atam Bağırovun nə haqda danışdığını başa düşməyib. Bağırov atama məktubu göstərəndə atam ona belə cavab vermişdi: “Siz bütün qohumlarınızın etdiyi işlərə görə məsuliyyət daşıyırsınızmı?”

Bağırovun cavabı belə idi: “Mən qohumlarımı öz əlimlə güllələmişəm. ”

Sonda o məktub atama baha başa gəldi. Atam vəzifəsindən kənar edildi, Abdulla isə Yazıçılar İttifaqına üzvlükdən azad edildi. Abdulla restoranların birində sərxoş olduğuna görə günahlandırılırdı. Aydındır ki, bu bir qurma idi.

Bağırovun bəşər xislətinə uyuşmayan cəza metodu var idi. O vaxt atamın bacısı Azərnəşr Nəşriyyat Evində işləyirdi. Bağırov ona atamın bütün nəşrlərindən onun adını götürməsini əmr etdi. Xalam özünü xəstəliyə vurdu və bir neçə gün işə çıxmadı. Lakin o, işə qayıtdıqdan sonra atamın adının artıq hər yerdən, hətta proqramlardan belə götürüldüyünü gördü. Amma bu hələ harası idi? Atam Azərbaycanı Moskvada keçiriləcək Onillikdə təmsil etmək üçün seçilmiş şəxslərdən biri idi. Lakin onu ora getməyə qoymadılar.

Bir neçə il sonra həm atamı, həm də Abdullanı müharibəyə [ikinci dünya müharibəsi] göndərdilər. Abdulla müharibədə həlak oldu. İki ildən sonra atam geri çağırıldı. O, ordunun siyasi rəhbəri Mexlisin Azərbaycan əsgərlərinə necə əzab verməsinə dair oçerklər yazırdı. Atamın oçerkləri Bağırovun çox xoşuna gəlmişdi və o, atamı Bakıya çağıraraq ondan ön cəbhədə gördüklərini təsvir etməsini istəmişdi. Bundan sonra Bağırov Mexlis haqda Stalinə məlumat vermişdi.

Sonralar atam öyrəndi ki, Bağırov kiril əlifbasına keçid haqda ilk dəfə eşidəndə özü də məyus olubmuş. O vaxt Bağırov ailə dostumuz Teymur Yaqubovun dostu idi. Teymur hələ 1939-cu ildə Bağırovla birgə Kremldə olmuşdu. O, Bağırovun Stalinin otağından nə halda çıxdığını xatırlayırdı. Aydın idi ki, Bağırovu bu xəbər sarsıtmışdı. O, otaqdan çıxanda əlləri əsir, əlindəki vərəqlər yerə tökülürdü. Teymur ondan nə baş verdiyini soruşduqda Bağırov bildirmişdi ki, bu dəqiqə Stalindən Azərbaycanda kiril əlifbasına keçidə başlamaq əmri almışdır.

Azərbaycan dilinin mühafizəsi

Kiril əlifbasına keçid açıq şəkildə müzakirə edilmirdi. Buna baxmayaraq daha səmərəli keçid yollarının tapılması müzakirəyə qoyulurdu. Atam kimi yazıçılar etiraz edə bilmirdilər, lakin onlar

kiril əlifbasının ümumi əlifba olmasına baxmayaraq Azərbaycan dilinin mühafizəsi uğrunda mübahisə apararaq öz dəyərlərini qəbul etdirə bildilər. Onları o narahat edirdi ki, azərbaycan dilinin deyil, rus dilinin fonetik sistemini mühafizə etmək üçün yaradılan kiril əlifbası sonda azərbaycan dilinin təhrif olunmasına gətirib çıxara bilər.

Kiril əlifbasında rus dilindəki səsləri göstərən bir neçə hərf var. Azərbaycan dilində bu səslər yoxdur. Məsələn, rus dilində "ts" səsini göstərən hərf var; azərbaycan dilndə bu səs yoxdur. Bundan başqa "ya", "yu", "ye" kimi səs birləşmələrini göstərən hərflər də var idi. O zamanlar belə bir zarafat var idi ki, azərbaycan dili yeganə dildir ki, onda sadəcə olaraq üç hərfin yerini dəyişərək mürəkkəb cümlə düzəltmək olar: "ya yu ye, ya ye yu." Bu üç hərf əlifbadan yalnız Stalinin ölümündən sonra, 1950-ci illərin sonu çıxarıldı.

Mənim fikrimcə, 1920-ci illərin əvvəli erkən latın əlifbasına ilk dəfə keçməyimiz özü özlüyündə bir səhv idi. Biz bu keçidə hazır deyildik, əsasən də 1920-ci ildə Bolşeviklərin gələrək mərkəzləşdirilmiş hökumət yaratdığı ağlasığmaz siyasi çevriliş dövründə. Bununla yanaşı şübhəsiz ki, erkən latın əlifbası türk xalqlarını onların 1300 illik tarixindən ayırdı.

Latın əlifbasından kiril əlifbasına keçid isə tamamilə başqa xarakter daşıyırdı. Belə ki, bu keçid siyasi əsarət kimi qəbul olunurdu. Latın əlifbasına keçiddən fərqli olaraq bu seçim xalqın istəyi əsasında baş verməmişdi. Kiril əlifbası sanki özlüyündə azərbaycan dili üzərində rus dilinə üstünlük verirdi. Yadımdadır ki, valideynlərim kiril əlifbasına keçidi daha dəhşətli faciə olan 1937-ci ildə başlanmış Stalin represiyalarından sonra həyatlarında ən böyük faciə hesab edirdilər. Onlar qorxurdular ki, sonda bu qərar Azərbaycanda tamamilə rus dilinin qəbulu və azərbaycan dilinin məhvinə səbəb olar. Xoşbəxtlikdən Azərbaycan dili həmin əlli il ərzində öz mövcudluğunu saxlaya bildi. Bu gün geriyə baxarkən aydın olur ki, 1923-cü ildə erkən latın əlifbasının qəbul edilməsi qərarı, 1991-ci ildə müstəqillik əldə etdikdən sonra dərhal yenidən latın əlifbasına keçilməsi üçün hərəkətverici qüvvə olmuşdu.

Bakıda Konqres

Latın əlifbasına ilk keçidin cəmiyyətə çox böyük təsiri olmuşdu. Lakin heç olmasa bizim əvvəlcədən keçidin nəticələrini müzakirə etmək imkanımız var idi. Azərbaycan latın əlifbasına keçidi müzakirə edən yeganə dövlət deyildi. 1926-cı ildə Bakıda İlk Türkoloji Konqres keçirildi və ora Türkiyə və Sovet İttifaqına daxil olan Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tatarıstan türk dövlətlərindən nümayəndələr dəvət edilmişdi. Hətta dövlət quruluşları olmayan Çuvaş, Sax (Yakut), Xakas və Bolqar kimi türk etnik qrupları da konqresə gəlmişdi. Moskvadan Bartold və Oldenburq kimi qabaqcıl alimlər də dəvət olunmuşdu.

Sonda konqresin 131 nəfərlik nümayəndə heyəti var idi. Konqresin sessiyası səkkiz gün—fevralın 26-dan martın 5-dək davam etdi. Konqres neft maqnatı Nağıyev tərəfindən tikilmiş zəngin İsmailiyyə binasında keçirilirdi (hal-hazırda bu bina Elmlər Akademiyasının binasıdır). Konqresin ilk sessiyasına Azərbaycanın Moskvanın nöqteyi-nəzərincə ən yüksək siyasi idarə sayılan Mərkəzi İcra Hakimiyyətinin o vaxtkı sədri Səmədağa Ağamalıoğlu sədrlik edirdi. Azərbaycandan olan ən fəal nümayəndələrə Ruhulla Axundov, Həbib Cəbiyev və Bəkir Çobanzadəni misal göstərmək olar.

Türkoloji konqres bir çox məsələlərə toxunurdu, lakin əsasən o bütün türk dilləri üçün ümumi bir əlifbanın yaradılması məsələsinin müzakirəsinə həsr olunmuşdu. Azərbaycanın artıq latın əlifbasını rəsmi olaraq ikinci əlifba kimi qəbul edib, 1923-cü il oktyabrın 20-dən ondan ərəb əlifbası ilə bərabər istifadə etməsinə baxmayaraq, o vaxt türk xalqlarının çoxu hələ də ərəb əlifbasını işlədirdi.

Bəzi kiçik türk xalqlarının isə heç əlifbası yox idi. Konqresdə böyük səs çoxluğu ilə—101 leyhinə və yalnız 7 əleyhinə—Sovet İttifaqı tərkibindəki bütün türk xalqlarının latın əlifbasını qəbul etməsi haqda qərar qəbul olundu.Türkiyə isə yeni əlifbanı 1928-ci ildə qəbul etdi və orada yeni əlifba 1929-cu il yanvarın 1-dən işlədilməyə başlandı. Həmin tarixdə Azərbaycan və Sovet İttifaqının digər bütün müsəlman xalqlarında ərəb əlifbası qadağan olundu. Azərbaycanda ərəb və latın əlifbalarının hər ikisinin 1923-cü ildən rəsmi şəkildə paralel işlənməsinə baxmayaraq, Sovet ensiklopediyalarında Azərbaycanda latın əlifbasından istifadənin başlanğıc tarixi ərəb əlifbasının qadağan olunduğu il—1929-cu il göstərilir.

Qızğın müzakirələr

Konqresin bəzi iştirakçıları qəti olaraq latın əlifbasına keçidə etiraz edirdi. Qazax alimi Baytursun və tatar nümayəndəsi Qalimjan Şərifov bu fikrin əleyhinə idi. Onlar ərəb əlifbasında islahat aparılmasını təklif edirdilər. Onlar ərəb əlifbasının Azərbaycan dilində olan hər bir səsin zənginliyini ifadə etməsini və səslərin iki hərflə ifadə olunmasının qarşısını almaq  istəyirdilər. Mövcud olan ərəb əlifbasında qısa saitlər (a, e, i, o, u) buraxılır, digər səslər isə (t, s, z) iki hərflə ifadə olunurdu.

Konqresdə latın və ərəb əlifbaları tərəfdarlarının mübahisələrininin stenoqrafik əlyazmalarını oxumaq sanki bir roman oxumaq kimi çox maraqlıdır.

Ərəb əlifbasının tərəfdarları sübut etmək istəyirdilər ki, yeni əlifba türk xalqlarının inkişafında geriyə bir addım olar və onları bir neçə əsrlik tarixi olan əbəbi miraslarından və bir-birindən ayırar. Lakin Azərbaycan və Türkiyədən olan nümayəndələr latın əlifbasına keçidi mütərəqqi bir addım kimi qiymələndirir və tarixi miraslarından ayrılmağa qorxmurdular. Onlar hesabat aparıb belə bir nəticəyə gəlmişdilər ki, Azərbaycan dilində olan bütün tarixi sənəd və mətnlərin ərəb əlifbasından çevrilərək latın əlifbasında yenidən çap edilməsinə bir xətt gəmisi dəyərində maliyyə vəsaiti lazımdır. Bu miqdar onlar üçün o qədər də qeyri-adi görünmürdü.

Bu fikrə zidd olan bir nəfər öz etirazını bildirmişdi: “Biz bu oyundan xəbərdarıq. Bu gün siz latın əlifbasını qəbul etmək istəyirsiniz, sabah da kirili istəyəcəksiniz.”

Bu sözdən inciyən rus alimi demişdi: “Siz niyə latın əlifbasının təşəbbüskarlarını günahlandırırsınız? Biz bilirik ki, türk xalqları heç vaxt kiril əlifbasını qəbul etməzlər, çünki onlar bunu Çar Rusiyasının müstəmləkəçilik siyasəti kimi qəbul edərlər.” Mən bu cavabın səmimiliyinə inanıram. O vaxt heç kim ağlına belə gətirə bilməzdi ki, bir neçə il sonra Stalin zorla kiril əlifbasını qəbul etdirəcək. Həmçinin onlar heç ağıllarına belə gətirə bilməzdilər ki, konqresdə iştirak edən 131 iştirakçıdan çoxunu dəhşətli ölüm gözləyir. Azərbaycandan olan

27 iştirakçıdan yalnız Ağamalıoğlu öz əcəli ilə dünyadan köçdü. Qalan iştirakçıların hamısı Stalin repressiyalarının qurbanı oldu. Konqresdən heç on il keçməmiş nümayəndələr həbs olundu, öldürüldü və ya Sibirə sürgün olundu və orada vəfat etdi.

Mənim fikrimcə ziyalılarımız ərəb əlifbasını geriyə addım hesab etməkdə yanılırdılar. Yapon və Çində də mürəkkəb əlifbalardan istifadə olunmasına baxmayaraq bu onların inkişafına mane olmamışdır.

Məncə o vaxt latın əlifbasına keçməməliydik. Bunun əvəzinə ərəb əlifbasında islahatlar aparmaq daha yaxşı olardı. Lakin əlbəttə ki, konqresdən təqribən 65 il sonra müstəqilliyimizi yenidən əldə etdikdən və 50 il kiril əlifbasından istifadədən sonra ərəb əlifbasına keçmək çox gülünc olardı. Bu gün dünya dilləri ilə əlaqəni latın əlifbası vasitəsilə həyata keçirmək mühüm əhəmiyyət kəsb edir.

Latına keçid

Lakin latın əlifbasına keçid heç də asan olmayıb. Bu yolda ən böyük maneə iqtisadi çətinlikdir. Nəşriyyat çox böyük məbləğdə maliyyə tələb edir. Bu prosesi sürətləndirmək üçün bizə iqtisadi kömək lazımdır.

Lakin buna baxmayaraq, biz mümkün olduqca bəzi əsas klassik əsərləri yenidən latın əlifbası ilə nəşr etməyi planlaşdırırıq. Biz klassik azərbaycan ədəbiyyatından 50 nümunə olan bir siyahı tərtib etmişik. Bu siyahıya “Koroğlu” (“Dədə Qorqud” artıq nəşr olunub), Nizami, Nəsimi, Füzuli, Xətai, Mirzə Cəlil, Sabir, Vagif və Məmmədquluzadə kimi yazıçıların əsərləri daxildir. Biz bu prosesi yavaş-yavaş davam etdirərək yeni yazıçıları da həmin siyahıya əlavə etmək istəyirik.

Mən əminəm ki, latın əlifbasını indi qəbul etmək düzgündür. Lakin eyni zamanda biz təhsil sistemimizdə o dəqiqə rus dilindən və kiril əlifbasından imtina etməməliyik. Əhalinin çoxu hələ ingilis dilini o qədər də yaxşı bilmir və hələ də azərbaycan dilində nəşr olunmayan rus dilli ədəbiyyat çoxdur. Hələ də uşaqlarımız azərbaycan dili ilə bərabər rus dilini və kiril əlifbasını da öyrənməlidirlər. Keçid prosesi birdən birə deyil, tədricən aparılmalıdır. Əgər biz lazımınca latın əlifbalı mənbələr olmadan kiril əlifbasını unutsaq, onda son əsr ərzində yaratdığımız intellektual sərvətimizi itirmək təhlükəsi qarşısında qalarıq.

Anar Azərbaycan Yazıçılar İttifaqının sədri və Parlamentin üzvüdür. O bir çox digər işlərlə yanaşı hal-hazırda Parlamentin Azərbaycanda Dil və Əlifba İşləri üzrə komitəsinə sədrlik edir.

---

Tərcümə: Gülnar Aydəmirova
Veb üçün hazırlayan və redaktə edən: Arzu Ağayeva